Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidməti nin Milli Gəlirlər Baş İdarəsi tərəfindən

Hüquqi Şəxslərin dövlət qeydiyyatı idarəsi

Qeydiyyat № ____________

"___" ___________ 20__-ci il

İdarə rəisi: ______________

"Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarının İllik Ümumi Yığıncağında təsdiq olunmuşdur

Protokol № 2

"19" may 2021-ci il

Müşahidə Şurasının Sədri

_______________ Eldar Qəribov

# "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsi (yeni redaksiyada)

("Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti 27 iyul 1992-ci il tarixində 72 saylı lisenziya ilə Azərbaycan Respublikası Milli Bankı tərəfindən qeydiyyata alınmışdır və 15 oktyabr 2002-ci il tarixində "Promtexbank" Səhmdar Kommersiya Bankının qoşulduğu "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və vəzifələrini əldə edib. 27 dekabr 2002-ci il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında Bank "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti adlandırılmışdır.)

BAKI – 2021

**"Unibank" Kommersiya Bankı"**
**Açıq Səhmdar Cəmiyyətinin**

# NİZAMNAMƏSİ

## BƏND 1. TƏRİFLƏR VƏ TƏFSİR

1.1 Təriflər.

Kontekstdən ayrı məna irəli gələn hallar istisna olmaqla, bu Nizamnamədə işlədilən təriflər aşağıdakı mənalarda istifadə olunur:

| | |
|---|---|
| **"Azərbaycan Manatı" və ya "AZN** | Azərbaycan Respublikasının rəsmi pul vahidi |
| **"Bank"** | Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq təsis edilmiş və fəaliyyət göstərən "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti. |
| **"Bankın Nizamnamə Kapitalı"** | hər hansı tarixə buraxılmış və dövriyyədə olan səhmlərin nominal dəyərinin ümumi məbləği. |
| **"Maliyyə Hesabatları"** | Azərbaycan Respublikasının qanunvericiliyinə və Beynəlxalq Mühasibat Standartlarına uyğun olaraq hazırlanmış, cəmləşdirilmiş və ayrılıqda olan maliyyə hesabatları, o cümlədən edilmiş qeydlərlə birlikdə balans, gəlir hesabatı və maliyyə vəziyyətində dəyişikliklər hesabatı. |
| **"Mühüm İştirak Payı"** | Səhmdar kapitalının və ya səsvermə hüququnun 10 və ya daha çox faizini təşkil edən, yaxud müqavilə əsasında iştirakçısı olduğu hüquqi şəxsin qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla sahiblikdir. |
| **"Banka Aidiyyatı olan Şəxslər"** | Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1-ci maddəsində göstərilən şəxslər, habelə bankın nizamnamə kapitalında iştirak payından asılı olmayaraq müqavilə əsasında bankın qərarlarının qəbul edilməsinə mühüm təsir göstərməyə imkan verən paya birbaşa və ya dolayı yolla malik olan hər hansı şəxs, bankın Audit Komitəsinin üzvləri, daxili audit bölməsinin əməkdaşları, qərarların qəbul edilməsində iştirak edən bankın digər |

əməkdaşları, bankın və onun filiallarının baş mühasibləri, həmin şəxslərlə Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.3-cü maddəsində nəzərdə tutulmuş qohumluq əlaqələri olan şəxslər, banka aidiyyəti şəxs adından hərəkət etməyə hüququ olan şəxslər, Azərbaycan Respublikasının Mülki Məcəlləsinin 49-1.1.6-cı və 49-1.1.7-ci maddələrində göstərilən şəxslərin ən azı 20 faiz payla iştirak etdiyi hüquqi şəxslər, bazar şərtlərindən əhəmiyyətli dərəcədə fərqlənən və açıq-aşkar iqtisadi əsasları olmayan əməliyyatların aparıldığı şəxslər

**"Beynəlxalq Mühasibat Standartları"** — Beynəlxalq Mühasibat Standartları Komitəsi tərəfindən qəbul olunmuş və ardıcıl surətdə tətbiq edilən mühasibat uçotu standartları.

**"Nizamnamə"** — Bankın hazırki Nizamnaməsi.

**"Qanunvericilik"** — Hər hansı hökumət və ya dövlət icra orqanı tərəfindən qəbul olunmuş, təsdiq edilmiş və ya digər üsulla qüvvəyə minmiş hər hansı qanun, fərman, qayda, əsasnamə, sərəncam, əmr, icazə və ya digər normativ-hüquqi aktlar.

**"Səhm"** — Səhm mülkiyyətçisinin həmin səhmin nominal dəyərinə mütənasib surətdə səhmi buraxmış səhmdar cəmiyyətinin nizamnamə kapitalında iştirakını, mənfəətindən dividendlər, ləğvindən sonra isə qalan əmlakının hissəsini almaq hüququnu, həmçinin səhmdar cəmiyyətinin idarə olunmasında iştirak etmək hüququnu təsdiqləyən investisiya qiymətli kağızıdır.

**"Səhmdar"** — Bankın bir və ya daha çox sayda Səhminin Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş qaydada mülkiyyətçisi olan fiziki və/ və ya hüquqi şəxs.

**"İnzibatçı"** — Bankın Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin üzvləri, habelə Bankın baş mühasibi (mühasibat xidmətinin rəhbəri), daxili audit bölməsinin əməkdaşları, Bankın filialının, şöbəsinin və nümayəndəliklərinin rəhbərləri və baş mühasibləri.

**"Yetərsay"** — Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnaməyə əsasən Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının və

İdarə Heyətinin iclaslarının keçirilməsi və onların səlahiyyətli olması üçün tələb olunan səslərin məcmusu.

1.2 Təfsir.

Bu Nizamnamədə:

1.2.1 tək şəkilində işlədilən söz həmçinin cəm şəklini nəzərdə tutur və əksinə;

1.2.2 xüsusi olaraq Bəndə istinadlar bu Nizamnamənin həmin göstərilən Bəndinə istinadı nəzərdə tutur;

1.2.3 başlıqlar yalnız istinadları asanlaşdırmaq məqsədilə istifadə olunur və Nizamnamənin təfsirinə təsir göstərmir;

1.2.4 "o cümlədən" sözü "heç bir məhdudiyyət olmadan" ifadəsini daxil edən kimi oxunulmalıdır;

1.2.5 yazıya istinadlar sözlərin aydın və dəyişməz formada hər hansı üsulla ifadə edilməsini nəzərdə tutur;

1.2.6 hər hansı normativ-hüquqi akta və ya normativ-hüquqi aktın müddəalarına istinad həmin normativ-hüquqi akta və ya onun müddəalarına vaxtaşırı olaraq edilən dəyişikliyi, əlavəni, onların yenidən qüvvəyə minməsini və ya əvəz olunmasını da nəzərdə tutur;

1.2.7 hər hansı sənədə və ya müqaviləyə istinad həmin sənədə və ya razılaşmaya vaxtaşırı olaraq edilən dəyişikliyi, əlavəni, onların yeniləşməsini və ya əvəz olunmasını da nəzərdə tutur.

## BƏND 2. BANKIN ADI, HÜQUQİ ÜNVANI VƏ FƏALİYYƏT MÜDDƏTİ

2.1 Bankın adı:

Azərbaycan dilində – "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti və ya qısaldılmış şəkildə "Unibank" KB ASC

İngilis dilində – "Unibank" Commercial Bank" Open Joint Stock Company və ya qısaldılmış şəkildə "Unibank" CB OJSC olacaq.

2.2 Bankın hüquqi ünvanı aşağıdakıdır: Azərbaycan Respublikası, AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi 55, məhəllə 384.

2.3 Bank açıq səhmdar cəmiyyətidir.

2.4 Bank Azərbaycan Respublikası Mərkəzi Bank tərəfindən verilmiş lisenziya əsasında fəaliyyət göstərir.

2.5 Bankın fəaliyyət müddəti zamanla məhdud deyil.

2.6 Bank öz hazırki adını "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 6 dekabr 2002-ci il tarixli Səhmdarlarının Ümumi Yığıncağının qərarı (Protokol № 2) və 27 dekabr 2002-ci il tarixdə "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında almışdır. Bank "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının və "MBANK" Səhmdar Kommersiya Bankının Səhmdarlarının 16 sentyabr 2002-ci il tarixli birgə Ümumi Yığıncağının qərarına (protokol № 1) və 15 oktyabr 2002-cil il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Nizamnaməsinə əsasən "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının "MBANK" Səhmdar Kommersiya Bankına qoşulması nəticəsində yenidən təşkil edilmişdir. Bu qoşulma nəticəsində "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının bütün hüquq və vəzifələri "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinə keçmişdir.

2.7 Bank "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və öhdəliklərini əldə etmişdir.

## BƏND 3. BANKIN MƏQSƏD VƏ FƏALİYYƏTİ

3.1. Bank çoxsahəli kredit və maliyyə xidmətlərini göstərmək və Azərbaycan Respublikasının bank sisteminin tərkib hissəsini təşkil etmək məqsədilə təsis edilmişdir. Yuxarıda qeyd edilənlərin həyata keçirilməsi üçün, bu Nizamnaməyə və Azərbaycan Respublikasının Qanunvericiliyinə (o cümlədən, Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının müvafiq bank qaydalarına) uyğun olaraq Bankın məqsədləri aşağıdakılardır:

3.1.1. Azərbaycan Respublikasının iqtisadiyyatının və ölkədə bank işininin inkişafına və ölkənin dünya iqtisadiyyatına inteqrasiyasına köməklik göstərmək;

3.1.2. bank, maliyyə və sərmayə qoyuluşu sahəsində xidmətlər göstərmək;

3.1.3. sahibkarlıq fəaliyyətinin inkişafına yönəlmiş yerli və xarici sərmayələrin və kreditlərin cəlb edilməsini təmin etmək;

3.1.4. öz vəsaitlərini, hüquqi və ayrı-ayrı fiziki şəxslərdən cəlb olunmuş vəsaitləri Azərbaycan iqtisadiyyatının və Bankın öz fəaliyyətinin inkişafına yönəltmək;

3.1.5. Azərbaycan Respublikasının Qanunvericiliyinə, Bankın Səhmdarlarının və müştərilərinin maraqlarına zidd olmayan bank lisenziyasında nəzərdə tutulmuş maliyyə, kredit və digər sahibkarlıq fəaliyyətini həyata keçirmək.

3.2. Azərbaycan Respublikasının Qanunvericiliyi və bank lisenziyası ilə müəyyən edilən hüdudlarda Bank aşağıdakı bank əməliyyatlarını həyata keçirmək hüququna malikdir:

3.2.1. tələbli və müddətli depozitlərin , digər qaytarılan vəsaitlərin cəlb edilməsi;

3.2.2. bütün növ təminatlı və təminatsız kreditlərin, o cümlədən istehlak və ipoteka kreditlərinin və digər kredit növlərinin verilməsi;

3.2.3. faktorinq, forfeytinq və lizinq xidmətlərinin göstərilməsi;

3.2.4. müştərilərin hesablarının açılması və aparılması;

3.2.5. digər banklar üçün müxbir hesabların açılması və aparılması;

3.2.6. klirinq, hesablaşma-kassa xidmətləri, pul vəsaitinin, qiymətli kağızların və ödəniş vasitələrinin köçürülməsi üzrə xidmətlərin göstərilməsi;

3.2.7. ödəniş vasitələrinin, o cümlədən debet və kredit kartların, yol çeklərinin, veksellərin və digər oxşar vasitələrin buraxılması;

3.2.8. öz hesabına və ya müştərilərin hesabına maliyyə vasitələrinin, o cümlədən çeklərin, köçürmə veksellərinin, borc öhdəliklərinin , öz hesabına və ya müştərilərin hesabına valyuta mübadiləsi əməliyyatlarının həyata keçirilməsi , qiymətli metalların və qiymətli daşların, valyuta və faiz vasitələrinin alınması və satılması;

3.2.9. öhdəliklərin icrasına təminatların, o cümlədən qarantiyaların verilməsi və öz hesabına və ya müştərilərin hesabına akkreditivlərin açılması;

3.2.10. maliyyə müşavirinin, maliyyə agenti və ya məsləhətçisi xidmətlərin göstərilməsi;

3.2.11. kreditlərə və kredit qabiliyyətinin yoxlanılmasına dair informasiya verilməsi və xidmətlər göstərilməsi;

3.2.12. sənədləri və qiymətliləri, o cümlədən pul vəsaitlərini saxlanca qəbul etmək (xüsusi otaqlarda və ya seyf qutularında saxlamaq);

3.2.13. qiymətli metalların əmanətə cəlb edilməsi və yerləşdirilməsi;

3.2.14. qiymətlilərin, o cümlədən qiymətli kağızların, banknotların və sikkələrin inkasasiya edilməsi və göndərilməsi;

3.2.15. Azərbaycan Respublikasının Qanunvericiliyinə, o cümlədən Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının tətbiq olunan qərarlarına zidd olmayan hər hansı digər fəaliyyəti.

3.3. Bank dövlət qiymətli kağızları almaq, satmaq, saxlamaq və onlarla əməliyyatlar həyata keçirmək hüququna malikdir.

3.4. Bank tərəfindən hazırlanan illik və rüblük Maliyyə Hesabatları və digər maliyyə məlumatları Azərbaycan Respublikasının Qanunvericiliyinə və Beynəlxalq Mühasibat Standartlarına uyğun hazırlanmalıdır. Mühasibatın və bütün mühasibat sənədlərinin aparılması Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olmalıdır.

3.5. Bank Azərbaycan Respublikasının Qanunvericiliyinə əsasən lisenziya əsasında həyata keçirilən fəaliyyət növləri üçün xüsusi razılıq (lisenziya) almalıdır.

## BƏND 4. BANKIN HÜQUQİ STATUSU

4.1 Bank hüquqi şəxsdir. Bank öz loqosuna, möhürünə və əmtəə nişanlarına malikdir.

4.2 Bank hər hansı digər bank və ya kredit təşkilatında Azərbaycan Respublikası maliyyə bazarlarına nəzarət orqanının müvafiq qaydalarına uyğun olaraq xarici valyutada müxbir hesablar açmaq hüququna malikdir. Bank müqavilələr bağlamaq, əmlak və şəxsi qeyri-əmlak hüquqlarını əldə etmək və öhdəliklər daşımaq, məhkəmələrdə iddiaçı və cavabdeh qismində çıxış etmək hüququna malikdir.

4.3 Bank mülki dövriyyədən çıxarılmayan hər hansı əmlaka mülkiyyət hüququ əldə etmək, ondan istifadə edə və ona aid əqdlər bağlamaq hüququna malikdir. Bank Azərbaycan Respublikası bank sisteminin ayrılmaz hissəsini təşkil edir.

4.4 Bank Səhmdarlar tərəfindən ödənilən nizamnamə kapitalının və öz fəaliyyəti nəticəsində əldə edilən gəlirin mülkiyyətçisidir.

4.5 Bank özünün filial, şöbə və nümayəndəliklərini Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının icazəsi ilə açmaq hüququna malikdir.

4.6 Filial, şöbə və nümayəndəlik hüquqi şəxs deyildir və Bankın Müşahidə Şurası tərəfindən təsdiq edilmiş əsasnamə və ya digər bu cür sənədlər əsasında fəaliyyət göstərir.

4.7 Bank Azərbaycan Respublikasının ərazisində və xaricdə törəmə müəssələr, o cümlədən banklar təsis etmək və ya törəmə müəssələrdə iştirak etmək hüququna malikdir. Azərbaycan Respublikasında törəmə bankı yaradıldıqda, o rəsmi qaydada qeydiyyatdan keçməli və bank əməliyyatlarını yalnız maliyyə bazarlarına nəzarət orqanından müvafiq lisenziya aldıqdan sonra həyata keçirməlidir.

4.8. Bankın Səhmdarları onun öhdəlikləri üçün cavabdeh deyildirlər və cəmiyyətin fəaliyyəti ilə bağlı qanunvericiliklə nəzərədə tutulan həddlərdə risk daşıyırlar.

## BƏND 5. BANKIN NİZAMNAMƏ KAPİTALI

5.1 Bankın Nizamnamə Kapitalının məbləği 125 686 355,68 (bir yüz iyirmi beş milyon altı yüz səksən altı min üç yüz əlli beş manat altmış səkkiz qəpik) Azərbaycan manatı təşkil edir.

5.2 Bank hər birinin nominal dəyəri 2,72 (iki manat yetmiş iki qəpik) Azərbaycan Manatı olan 46 208 219 (qırx altı milyon iki yüz səkkiz min iki yüz on doqquz) ədəd adi adlı, səs hüququ verən sənədsiz səhm buraxır. Səhmlərin dəyəri Azərbaycan Manatı ilə ödənilməlidir. Səhmdarların Yığıncağında ayrı qərar qəbul edilməzsə, Bank sənədli səhmlər buraxmayacaq.

5.3 Bankın Nizamnamə Kapitalının məbləği Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edildiyi qaydada Səhmdarların Ümumi Yığıncağının qərarı ilə artırıla və ya azaldıla bilər.

5.4 Səhmdarlar Bank tərəfindən yeni Səhmlər buraxılarkən - onları Bankın nizamnamə kapitalında malik olduqları iştirak payına mütənasib şəkildə almaqda üstünlük hüquququna malikdirlər. Əlavə Səhmlərin buraxılması və/və ya Səhmlərin keçməsi nəticəsində hər hansı Səhmdarın malik olduğu səsvermə hüququ verən Səhmlərin Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilən həddə çatması və ya həmin həddin aşması Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının razılığı əsasında həyata keçirilir.

5.5 Hər bir Səhmin verdiyi hüquqlar digər eyni növlü Səhmin verdiyi hüquqlarla eyni olmalıdır.

5.6. Əcnəbilərin və xarici hüquqi şəxslərin, o cümlədən xarici bank və xarici bank holdinq şirkətlərinin, Bankda iştirakı Azərbaycan Respublikasının Qanunvericiliyi ilə tənzimlənir.

## BƏND 6. SƏHMDARLARIN HÜQUQ VƏ VƏZİFƏLƏRİ

6.1. Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq Bankın adi Səhmlərin sahibləri olan Səhmdarları bu Nizamnamədə müəyyən edilmiş qaydada aşağıdakı hüquqlara malikdirlər:

6.1.1. Bankin idarə edilməsində iştirak etmək, onun idarəetmə və icra orqanlarına seçmək və seçilmək;

6.1.2. Bankın fəaliyyətinə dair məlumatlar almaq, ildə bir dəfə onun illik hesabatı və maliyyə hesabatları ilə tanış olmaq;

6.1.3. Bankın Səhmdarlarının Ümumi Yığıncağının çağırılmasını tələb etmək;

6.1.4. Bankın Səhmdarlarının Ümumi Yığıncağının gündəliyində dəyişikliklərin edilməsini və gündəliyə yeni müzakirə mövzularının əlavə olunmasını tələb etmək;

6.1.5. Bankın Səhmdarlarının Ümumi Yığıncağında səsvermə hüququ ilə iştirak etmək və onun protokolunun surətini tələb etmək.Bankın Səhmdarlarının aidiyyəti şəxslərlə bağlanması nəzərdə tutulan əqdlərə münasibətdə səsvermə hüququ Azərbaycan Respublikasının qüvvədə olan qanunvericiliyinin tələblərinə uyğun olaraq tənzimlənir;

6.1.6. Bankın fəaliyyətinin auditor tərəfindən yoxlanılmasını tələb etmək;

6.1.7. Bankın xalis mənfəətindən dividend almaq;

6.1.8. Bankın fəaliyyətinə xitam verildikdə, Bankın kreditorlarının tələbləri yerinə yetirildikdən, hesablanmış, lakin ödənilməmiş dividendlər, habelə imtiyazlı Səhmlərin ləğvetmə dəyəri ödənildikdən sonra Bankın yerdə qalan əmlakının müəyyən hissəsini almaq;

6.1.9. İcra orqanının və Müşahidə Şurasının üzvlərinin səhlənkarlığına və Banka qəsdən vurduğu zərərə görə məsuliyyətə cəlb edilməsini tələb etmək;

6.1.10. Bankın səhmlərinin satışı prosesində iştirak etmək;

6.1.11. Bağlanmış əqd nəticəsində Banka və ya səhmdarlara dəyən zərərin və bununla bağlı məsrəflərin ödənilməsi barədə məhkəməyə və ya digər səlahiyyətli quruma müraciət etmək;

6.1.12. bağlanacaq əqdlərin (aidiyyəti şəxslərlə əqdlərin və xüsusi əhəmiyyətli əqdlərin) əlavələri ilə tanış olmaq.

6.2. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq, Bankın imtiyazlı Səhm sahibləri aşağıdakı məsələlər üzrə qərarların qəbul edilməsində səs hüququna malikdirlər:

6.2.1. Bankın yenidən təşkil edilməsi;

6.2.2. Bankın ləğv edilməsi;

6.2.3. Səhmdara məxsus olan imtiyazlı Səhm növü üzrə hüquqlarını məhdudlaşdıran dəyişiklik və əlavələrin nizamnamədə edilməsi.

6.3. Azərbaycan Respublikasının qanunvericiliyinə və bu Nizamnaməyə uyğun olaraq Bankın Səhmdarları aşağıdakı vəzifələri daşıyırlar:

6.3.2. kommersiya sirri və ya məxfi hesab olunan məlumatları üçüncü şəxslərə açıqlamamaq;

6.3.3. Səhmdarların reyestrində ona dair daxil edilmiş məlumatların dəyişilməsi barədə reyestrsaxlayıcısına və Banka 10 (on) təqvim günü ərzində yazılı bildiriş vermək.

6.4. Qanunvericilik və Nizamnamə ilə nəzərdə tutulmuş hallarda Bankın Səhmdarları digər hüquq və vəzifələrə malikdirlər.

## BƏND 7. SƏHMLƏRİN TƏDAVÜLÜ VƏ SƏHMDARLARIN QEYDİYYATI

7.1. Səhmlərə mülkiyyət hüququ buraxılış zamanı həmin səhmin ilk mülkiyyətçiyə özgəninkiləşdirilməsindən sonra mərkəzi depozitarda qeydə alındığı andan əmələ gəlir.

7.2. Səhmdarlar səhmə mülkiyyət hüququnu qanunvericilikdə göstərilən qaydada əqdlərin bağlanması yolu ilə başqa şəxsə ötürə bilər.

7.3. Səhmlərə təsdiqlənmiş hüquqlar əldə edən şəxsə həmin səhmlər mülkiyyət hüququ keçən andan keçir.

7.4. Səhmi əldə edən şəxsin mülkiyyət hüquqları həmin səhmin ötürülməsinin mərkəzi depozitarda qeydiyyatı ilə yaranır.

7.5. Bank Səhmdarlarının reyestri Qanunvericiliyə uyğun olaraq mərkəzi depozitar tərəfindən aparıdır.

7.6. Səhmdar ildə bir dəfə yazılı müraciət təqdim etməklə Bankin icra orqanından səhmdarların reyestrinin ona təqdim edilməsini tələb edə bilər. Bankın icra oqranı 5 (beş) gün ərzində Səhmdarların reyestrini həmin səhmdara təqdim edir.

## BƏND 8. SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI

8.1. Səhmdarların Ümumi Yığıncağı Bankın ali idarəetmə orqanıdır.

8.2. Səhmdarların illik Ümumi Yığıncağı Bankın hər il üçün maliyyə hesabatları tərtib edildikdən və kənar auditor yoxlamasından keçdikdən sonra ən geci iki ay ərzində keçirilir.Müşahidə Şurasının və İdarə Heyətinin illik hesabatları Səhmdarların illik Ümumi Yığıncağına təqdim olunmalıdır

8.3. Səhmdarların növbəti və növbədənkənar yığıncaqları keçirilə bilər. Səhmdarların hər bir növbəti ümumi yığıncağının keçirilməsi günü, yeri, vaxtı və gündəlik üzrə materiallarla tanış olma qaydası barəsində bildirişlər, habelə həmin yığıncağın gündəliyi yığıncağın keçirilməsi gününə ən azı 45 təqvim günü qalmış səhmdarlara göndərilir və bu barədə kütləvi informasiya vasitələrində məlumat dərc etdirilir. Bildirişlə birlikdə göndərilən gündəliyə daxil edilməmiş məsələlər üzrə qərar qəbul olunmasına yol verilmir. Növbəti yığıncaqlar ildə bir dəfədən az olmayaraq keçirilir. Növbəti yığıncaqlar bankın hər il üçün maliyyə hesabatı tərtib edildikdən və kənar auditor yoxlamasından keçdikdən sonra ən geci iki ay ərzində keçirilir.

8.4. Növbədənkənar yığıncaqlar səsvermə hüququ olan səhmlərin azı 5 faizinin sahibləri olan səhmdarların, Müşahidə Şurasının, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə çağırıla bilər. Növbədənkənar yığıncaqların çağırılması qaydası və müddəti Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə tənzimlənir.

8.5. Səhmdarların illik Ümumi Yığıncağından əlavə olan hər hansı Səhmdarların Ümumi Yığıncağı Səhmdarların növbədənkənar Ümumi Yığıncağı adlanır.

8.6. Səhmdarların illik Ümumi Yığıncaqlarının çağırılması Müşahidə Şurası tərəfindən təşkil edilir. Səhmdarların bütün Ümumi Yığıncaqları Azərbaycan Respublikasının Bakı şəhərində keçirilməlidir.

## BƏND 9. SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞI HAQQINDA BİLDİRİŞ

9.1. Səhmdarların Ümumi Yığıncağının keçirilməsi haqqında yazılı bildiriş Səhmdarların Ümumi Yığıncağının keçirilməsinə ən azı 45 (qırx beş) təqvim günü qalmış hər yığıncaqda iştirak etmək və səs vermək hüququna malik olan bütün Səhmdarlara göndərilir, həmçinin Səhmdarların Ümumi Yığıncağı barədə məlumat kütləvi informasiya vasitələrində dərc edilir. Belə bildiriş vaxtaşırı olaraq müvafiq Səhmdar tərəfindən Banka bildirilən ünvana faksla, elektron poçt vasitəsi ilə (elektron sənəd şəklində) və ya şəxsən göndərilməlidir. Bildiriş göndərildiyi gündən sonra gələn növbəti iş günündə (faksla göndərilən hallarda) və ya çatdırılma gününə (şəxsən çatdırılan hallarda) çatdırılmış sayılır. Hər bir bildirişdə yığıncağın yeri, günü, vaxtı, yığıncağın gündəliyi və gündəlik üzrə materiallarla tanış olma qaydası göstərilməlidir. Səhmdarların yığıncağda səsvermə hüququna malik olan bütün Səhmdarlar təmsil olunmuşdursa, yığıncağ onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan Səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər.

9.2. Səhmdarların növbədənkənar Ümumi Yığıncağının çağırılması haqqında tələbin (təşəbbüsün) daxil olduğu gündən etibarən icra orqanı aşağıdakıları yerinə yetirməlidir:

9.2.1 3 (üç) iş günü müddətində Səhmdarların ümumi yığıncağının vaxtını və yerini təyin edib, bu barədə kütləvi informasiya vasitələrində elan vermək;

9.2.2 5 (beş) iş günü müddətində Səhmdarların Ümumi Yığıncağının çağırılması barədə bildirişləri Səhmdarlara göndərmək;

9.2.3. 30 (otuz) gündən tez, 45 (qırx beş) gündən gec olmayaraq Səhmdarların Ümumi Yığıncağının keçirilməsini təmin etmək.

## BƏND 10. SƏHMDARLARIN ÜMUMİ YIĞINCAĞININ QAYDALARI

10.1. Səhmdarların hər hansı Ümumi Yığıncağında Yetərsay olmadığı halda heç bir iclas aparıla bilməz. Ümumi Yığıncaqda iştirak etmək və səs vermək hüquqlarını verən bütün Səhmlərin azı 60 (altmış) faizinə sahib olan Səhmdarların şəxsən və ya etibarnamə əsasında onları təmsil edən nümayəndələrin və ya Səhmdar hüquqi şəxs olduqda isə onun səlahiyyətli nümayəndəsinin iştirakı Yetərsay təşkil edir.

10.2. Səhmdar Ümumi Yığıncağın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz bildirməklə (lehinə, əleyhinə, bitərəf), imzası qanunvericilikdə müəyyən

edilmiş qaydada (notariat və sair) təsdiq edilməklə Səhmdarların Ümumi Yığıncağında iştirak edə bilər.

10.3. Əgər Ümumi Yığıncağın təyin olunduğu vaxtdan yarım saat ərzində Yetərsay yığılmazsa və ya həmin yığıncağın gedişi zamanı həmin Yetərsayı təşkil edən say azalarsa, yığıncaq buraxılaraq Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş qaydada yenidən çağırılmalıdır. Təxirə salınmış yığıncaqda Yetərsayın hesab edilməsi qaydası Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilir.

10.4. Müşahidə Şurasının sədri Səhmdarların hər Ümumi Yığıncağında sədrlik etməlidir. Müşahidə Şurasının sədri yığıncağın təyin edildiyi vaxtdan yarım saat ərzində yığıncağa gəlməsə və ya sədrlik etmək niyyətində olmasa, iştirak edən Səhmdarlar öz aralarından yığıncaqda sədrlik etmək üçün bir nəfəri seçməlidirlər (iştirak edənlərin səslərinin sadə çoxluğu əsasında).

10.5. Səhmdarların yığıncağında səsvermə hüququna malik olan bütün səhmdarlar təmsil olunmuşdursa, yığıncaq onun çağırılması vaxtından və üsulundan asılı olmayaraq səlahiyyətli sayılır. Səsvermə hüququna malik olan səhmdarların hamısı yekdilliklə razılıq verərsə, bu yığıncaq gündəliyə daxil edilməmiş məsələləri də müzakirə edə və onlara dair qərarlar qəbul edə bilər. Yetərsay olan Ümumi Yığıncağın razılığı əsasında yığıncağın davamını bütün səhmdarları məlumatlandırmaqla digər vaxta təyin etmək Səhmdarların Ümumi Yığıncağının səlahiyyətinə aiddir və bununla bağlı məsələlər Bankın Ümumi Yığıncağın keçirilməsinə dair müvafiq daxili qaydaları ilə tənzimlənir. Belə yığıncaqda yalnız təxirə salınmış yığıncaqda həlli başa çatmayan məsələlər müzakirə edilə bilər.

10.6. Ümumi Yığıncağın müstəsna səlahiyyətlərinə aşağıdakılar daxildir:

10.6.1. Bankın Nizamnaməsinin qəbul edilməsi, ona əlavə və dəyişikliklərin edilməsi;

10.6.2. Bankın büdcəsini qəbul və təsdiq etmək;

10.6.3. Bankın reqlamentinin qəbul edilməsi və reqlamentə əlavə və dəyişikliklərin edilməsi;

10.6.4. Bank tərəfindən təsdiq edilən faiz dərəcələrinin və komission haqlarının, Bankın aktivlərinin yerləşdirilməsi və kateqoriyaları barəsində siyasətinin habelə Bankın ümumi maliyyə, uçot, inzibati və kadr siyasətinin təsdiq olunması;

10.6.5. Hər hansı hüquqi şəxslərdə səhmlərin və ya digər iştirak paylarının investisiya məqsədləri üçün alınmasının, Bankın filial, şöbə və nümayəndəliklərinin yaradılması və ləğv edilməsinin, həmçinin onların əsasnamələrinin təsdiq edilməsi;

10.6.6. İdarə Heyətinin üzvlərinin təyin və azad edilməsi, bu qurumun Əsasnaməsinin təsdiq edilməsi;

10.6.7. İdarə Heyətinin üzvlərinin sırasından İdarə Heyətinin Sədrinin seçilməsi;

10.6.8. Bankın Müşahidə Şurasının üzvlərinin və Sədrinin seçilməsi, onların səlahiyyətlərinə xitam verilməsi, Müşahidə Şurasının əsasnaməsinin təsdiq edilməsi. Müşahidə Şurasının üzvlərinin bütün hüquq və vəzifələri bu qurumun müvafiq əsasnaməsində öz əksini tapır.

10.6.9. Qanunvericiliyin tələbləri nəzərə alınmaqla Bankın İnzibatçılarının işə götürülməsi müddətlərinin və şərtlərinin müəyyənləşdirməsi;

10.6.10. Müşahidə Şurası üzvlərinin səlahiyyətləri istisna olmaqla Bankın İnzibatçılarının Bank adından və Bank hesabına öhdəliklər qəbul etmək səlahiyyətlərini və həmin səlahiyyətlərin Bankın digər əməkdaşlarına verilməsi hüququnun hədlərini müəyyənləşdirilməsi;

10.6.11. Bank İnzibatçılarının kommersiya maraqlarının açıqlaması haqqında qaydaları və həmin qaydalara dəyişiklik və əlavələrin təsdiq edilməsi;

10.6.12. Bankın törəmə təsərrüfat cəmiyyətlərinin yaradılması və ləğv edilməsi, başqa bankın satın alınmasının təsdiq edilməsi;

10.6.13. Bankın Nizamnamə Kapitalının artırılması və ya azaldılması, Bank səhmlərinin buraxılması müddət və şərtlərinin müəyyən edilməsi;

10.6.14. Bankda Mühüm İştirak Payının (Azərbaycan Respublikasının Qanunvericiliyində müəyyən edildiyi qaydada) əldə edilməsinə razılıq verilməsi;

10.6.15. Bankın kənar auditor tərəfindən təsdiqlənmiş və Audit Komitəsi tərəfindən tövsiyə edilmiş illik Maliyyə Hesabatlarının təsdiq edilməsi, habelə xalis mənfəət hesabına ehtiyatların yaradılması;

10.6.16. Dividendlərin ödənilməsi barədə qərarın qəbul edilməsi;

10.6.17. Bankın satılması, yenidən təşkilinin və ya ləğv edilməsinin təsdiq edilməsi;

10.6.18. Səhmlərin beynəlxalq maliyyə bazarlarında yerləşdirilməsinin təsdiq edilməsi;

10.6.19. Bankın fəaliyyətinin əsas istiqamətlərinin müəyyənləşdirilməsi, Bankın strateqiyasının və Bank fəaliyyətinin inkişafının təsdiq edilməsi;

10.6.20. Ləğvetmə komissiyasının üzvlərinin təyin edilməsi;

10.6.21. Müşahidə Şurasının Sədrinin və üzvlərinin muzdunu Bankın bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında təyin edilməsi;

10.6.22. Qanunvericiliklə və bu Nizamnamə ilə müəyyən edilmiş digər səlahiyyətlərin həyata keçirilməsi.

10.7. Bu Nizamnamənin 10.6.2, 10.6.4, 10.6.5, 10.6.6, 10.6.7 yarımbəndləri ilə Səhmdarların Ümumi Yığıncağının müstəsna səlahiyyətlərinə aid edilmiş məsələlər həll edilmək üçün Bankın Müşahidə Şurasına həvalə edilə bilər.

10.8. Səhmdarların Ümumi Yığıncağının qərarları sadə səs çoxluğu, Nizamnaməyə əlavə və dəyişikliklərin edilməsi, Müşahidə Şurası və İdarə Heyətinin üzvlərinin təyin və azad edilməsi, Bankın satılması, yenidən təşkili, başqa bankın alınması və Bankın ləğv edilməsi məsələləri üzrə qərarlar isə Ümumi Yığıncaqda təmsil edilən Səhmdarların 75 (yetmiş beş) faiz səs çoxluğu ilə qəbul olunur.

## BƏND 11. SƏHMDARLARIN SƏSLƏRİ

11.1. Hər ha nsı Səhmə sahib olan səhmdarhüquq və məhdudiyyətlər nəzərə alınmaqla şəxsən və ya etibarnamə əsasında, Səhmdar hüquqi şəxs olduqda isə onun səlahiyyətli numayəndəsi ilə təmsil olunan hər bir Səhmdar ona mənsub olan hər bir Səhm üzrə bir səsə malikdir.

11.2. Fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli Səhmdar özünün qanuni nümayəndəsi vasitəsilə səsvermədə iştirak edə bilər.

11.3. Səhmdarların Ümumi Yığıncağının keçirilmə tarixində Səhmdar kimi qeydiyyatdan keçməmiş şəxs səsvermə hüququna malik deyildir.

11.4. Səhmdarların Ümumi Yığıncağında və ya təxirə salınmış Ümumi Yığıncaqda verilmiş və ya təklif olunmuş səs ilə bağlı səsverən şəxsin səlahiyyətlərinə dair irəli sürülən etirazlar istisna olmaqla, səsverən şəxsin səlahiyyətlərinə dair heç bir etiraz irəli sürülə bilməz və etibarsız hesab edilməmiş hər bir səs yığıncaqda etibarlı hesab olunmalıdır.

## BƏND 12. NÜMAYƏNDƏLƏR

12.1. Nümayəndəni təyin edən etibarnamə Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilən formada olmalıdır və nümayəndəni təyin edən Səhmdar və ya onun Qanunvericiliyə uyğun olaraq yazılı formada və dövlət notariusu tərəfindən təsdiq olunmuş qanuni təmsilçisi tərəfindən imzalanmalıdır, və ya əgər nümayəndəni təyin edən hüquqi şəxsdirsə, bu məqsəd üçün səlahiyyətli olan vəzifəli şəxs və ya nümayəndəsi tərəfindən imzalanmalıdır. Nümayəndə Səhmdar olmaya da bilər. Nümayəndə Səhmdar tərəfindən bir və ya bir neçə sənədə əsasən yığıncaqda iştirak etmək və səs vermək məqsədi ilə təyin oluna bilər.

12.2. Nümayəndəni təyin edən etibarnamə (və etibarnaməni vermək hüququnu təsdiq edən sənəd) Səhmdarların Ümumi Yığıncağının və ya təxirə salınmış yığıncagın keçirilməsi tarixindən gec olmayaraq Bankın qeydiyyatdan keçmiş ofisinə o şərtlə təqdim olunmalıdır ki, belə yığıncağın sədri həmin sənədin təqdim edilmiş hesab edilməsi barədə öz mülahizəsinə əsasən qərar çıxara

bilər. Bu bənddə nəzərdə tutulmuş qaydada təqdim olunmayan sənəd etibarsız hesab olunur.

12.3. Nümayəndəni təyin edən etibarnamə konkret yığıncağa və ya təxirə salınmış yığıncağa, və ya ümumi olaraq geri çağırılana qədər verilə bilər.

12.4. Nümayəndəni təyin etmiş şəxsin vəfat etməsinə, fəaliyyət qabiliyyəti olmayan və ya məhdud fəaliyyət qabiliyyətli olan və ya itgin düşmüş elan edilməsinə və ya nümayəndənin təyin edən etibarnamənin və ya etibarnaməni vermək səlahiyyətinin geri çağırılmasına və ya nümayəndənin təyin olunduğu Səhmlərin başqasına keçməsinə baxmayaraq nümayəndəni təyin edən etibarnamə, əgər bu vaxta qədər bu etibarnamənin etibarsız hesab edilməsinə dair sənəd Bankın qeydiyyat orqanına növbəti və ya növbədənkənar Ümumi Yığıncaqların keçirilməsinə qədər daxil olmayıbsa, etibarlı hesab edilir. Azərbaycan Respublikasından kənarda verilmiş nümayəndəni təyin edən etibarnamə müvafiq qanunvericiliklə tənzimlənir.

## BƏND 13. MÜŞAHİDƏ ŞURASI

13.1. Müşahidə Şurası öz səlahiyyətləri hüdudlarında ümumi rəhbərliyi və Bankın fəaliyyəti üzərində nəzarəti həyata keçirən orqandır.

13.2. Müşahidə Şurası öz fəaliyyətini Azərbaycan Respublikasının qanunları, bu Nizamnamə və Səhmdarların Ümumi Yığıncağı tərəfindən təsdiq edilmiş Müşahidə Şurasının Əsasnaməsi əsasında aparır.

13.3. Müşahidə Şurası tək sayda olmaqla ən azı 3 (üç) və ən çoxu 7 (yeddi) üzvdən ibarət olacaq.

13.4. Müşahidə Şurasının üzvləri Səhmdarların Ümumi Yığıncağı tərəfindən - 3 (üç) il müddətinə yenidən seçilmək hüququ ilə təyin edilirlər.

13.5. Müşahidə Şurasının üzvü Azərbaycan Respublikasının Qanunvericiliyi ilə İnzibatçılara dair müəyyən edilmiş tələblərə uyğun gəlməlidir. Müşahidə Şurasının üzvü belə tələblərə uyğun gəlmədikdə Bankın Səhmdarlarının Ümumi Yığıncağının qərarı ilə Müşahidə Şurasının üzvü vəzifəsindən azad edilməlidir.

13.6. Bankın Səhmdarlarının Ümumi Yığıncağı Müşahidə Şurasının üzvləri sırasından Müşahidə Şurasının sədrini seçməlidir.

13.7. Səhmdarların Ümumi Yığıncağı Müşahidə Şurasının Sədrinə və üzvlərinə muzdu Bankin bölüşdürülməmiş mənfəətinin faizi şəklində və ya əmək haqqı formasında Səhmdarların ümumi yığıncağında təyin edilir.

13.8. Müşahidə Şurasının iclasları ən azı üç ayda bir dəfə keçirilir.

## BƏND 14. MÜŞAHİDƏ ŞURASININ İCLASLARI BARƏDƏ BİLDİRİŞ

14.1. Bu Nizamnaməyə uyğun olaraq Müşahidə Şurasının iclası barədə bildiriş onun keçirilmə vaxtına azı 10 (on) gün qalmış verilməlidir. Hər bir bildirişin müddətinin hesablanması üçün onun verildiyi və ya verilməsi hesab edilən gün və iclasın günü hesablanmamalıdır və hər bir bildiriş iclasın keçirilmə yeri, günü və saatı barədə məlumatı özündə əks etdirməlidir. Müşahidə Şurasının iclasının çağırılmasının iclasda iştirak etmək və səs vermək hüququ olan üzvlər tərəfindən yekdilliklə düzgün olması hesab edilən hallar istisna olmaqla, hər bir bildirişdə iclasın yeri, günü, vaxtı və iclasın gündəliyi göstərilməlidir. Xarici fiziki və ya hüquqi şəxslər Səhmdar olduqları bütün müddət ərzində bütün bildirişlər, gündəliklər və protokollar Azərbaycan və İngilis (və yaxud Rus) dillərində tərtib olunacaqdır və Müşahidə Şurasının bütün iclasları İngilis dilinə sinxron tərcümə Bank tərəfindən təmin olunmaqla Azərbaycan dilində keçiriləcək.

14.2. Müşahidə Şurasının iclasında iştirak etmək və səs vermək hüququna malik olan hər bir üzv Banka bildiriş verməklə Müşahidə Şurasının iclasının keçirilməsini tələb edə bilər. Müşahidə Şurasının iclasları həmçinin, buraxılmış Səhmlərin ən azı 3 (üç) faizinə sahib olan Səhmdar və ya Səhmdarlar qrupunun, Bankın Audit Komitəsinin və ya İdarə Heyətinin tələbi ilə çağırılır.

14.3. Müşahidə Şurasının iclasından ən azı 5 (beş) iş günü əvvəl Müşahidə Şurasının hər bir üzvü, Azərbaycan və İngilis (və yaxud Rus) dillərində tərtib olunmuş aşağıdakı məlumat ilə təmin olunmalıdır:

14.3.1. Müşahidə Şurasının əvvəlki iclasının protokolu;

14.3.2. sonuncu təsdiq olunmuş illik əməliyyat büdcəsi ilə müqayisədə sonuncu tərtib olunmuş Maliyyə Hesabatları, orta müddətli biznes planı və yuxarıdakı sənədlər arasında bütün əhəmiyyətli fərqlərə dair şərh;

14.3.3. tələb olunduqda, marketinq və biznes inkişafı hesabatları;

14.3.4. kredit portfelinin keyfiyyətinə, və kreditlərin qaytarılmasına dair tədbirlər və digər hərəkətlər planı da daxil olmaqla, gecikdirilmiş kreditlərin keyfiyyəti barədə rüblük hesabatlar;

14.3.5. aktivlər/passivlər və likvidliyin idarə olunması barədə hesabatlar;

14.3.6. Müşahidə Şurasının əvvəlki iclası tərəfindən tələb edildikdə, Audit Komitəsinin hesabatları;

14.3.7. bütün əhəmiyyətli biznes məsələləri üzrə hesabat;

14.3.8. tələb olunduqda, biznes planına təklif edilən dəyişikliklərin layihəsi və illik əməliyyat büdcəsinin layihəsi;

14.3.9. Müşahidə Şurasının iclasının gündəliyi ilə müəyyən olunmuş məsələlər ilə bağlı tələb olunan hər hansı digər sənəd.

## BƏND 15. MÜŞAHİDƏ ŞURASININ İCLASLARININ QAYDALARI

15.1. Müşahidə Şurasının iclasında Yetərsay olmadığı halda heç bir iş aparıla bilməz. İclasda iştirak etmək və səs vermək hüququna malik olan üzvlərin yarısından çoxunun iştirakı Yetərsay təşkil edir.

15.2. Müşahidə Şurasının hər bir üzvü Müşahidə Şurasının iclaslarında müzakirə olunan məsələlər ilə bağlı 1 (bir) səsə malikdir. Nizamnamənin 15.7-ci bəndinin müddəaları nəzərə alınmaqla, Müşahidə Şurasının qərarları sadə səs çoxluğu ilə qəbul olunur.

15.3. Səslər bərabər bölündükdə Müşahidə Şurasının sədri həlledici səsə malikdir.

15.4. Müşahidə Şurasının üzvləri səsvermə zamanı bitərəf qala bilməzlər.

15.5. Müşahidə Şurasının iclasında gündəliyə daxil edilən məsələlər müzakirə edilməlidir. Gündəlik Müşahidə Şurası, Audit Komitəsi və İdarə Heyətinin üzvləri, habelə mühüm iştirak payına malik olan səhmdarlar və ya səsvermə hüququ olan səhmlərin azı 5 (beş) faizinin mülkiyyətçiləri olan səhmdarlar tərəfindən verilən təkliflər nəzərə alınmaqla tərtib olunur. Gündəlikdə nəzərdə tutulmayan təxirəsalınmaz və gözlənilməz məsələlərin müzakirəsinə və müvafiq qərarların qəbul edilməsinə həmin iclasda Müşahidə Şurasının- bütün üzvləri iştirak etdikdə və sadə səs çoxluğu ilə razılıq olduqda yol verilir;

15.5-1. Müşahidə Şurasının üzvləri iclaslarda şəxsən və ya telekommunikasiya vasitələri (video görüntü və ya telefon bağlantısı) ilə iştirak edə bilərlər. İclas protokolunda üzvün telekommunikasiya vasitəsilə iştirak etməsi barədə qeyd olur, həmin iclasın video və ya audio yazılışı aparılır və dözümlü daşıyıcılarda ən azı 3 (üç) il müddətində Bankda saxlanılır. Müşahidə Şurasının hər bir üzvü səsvermədə iclasın gündəliyində olan məsələyə münasibətini dəqiq və şərtsiz (lehinə və ya əleyhinə) bildirməklə, protokolu şəxsən imzalamalı və ya imzası qanunvericilikdə müəyyən edilmiş qaydada təsdiq edilməklə məsələyə münasibəti barədə yazılı sənəd təqdim etməlidir. Müşahidə Şurasının hər hansı bir üzvü ardıcıl olaraq üç iclasda şəxsən iştirak etmədikdə Müşahidə Şurasının sədri, yaxud onu əvəz edən şəxs sonuncu iclas tarixindən 5 (beş) iş günündən gec olmayaraq bu barədə maliyyə bazarlarına nəzarət orqanına yazılı məlumat təqdim etməlidir.

15.6. Müşahidə Şurasının müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

15.6.1. Bankın təşkilati strukturunun təsdiq edilməsi;

15.6.2. Öhdəliklərin Təminatı Siyasətinin, Orta Müddətli Biznes Planının, Haqq və Xərclər Cədvəlinin təsdiq olunması və dəyişdirilməsi;

15.6.3.Bankın Siyasəti barədə Bəyannamənin və onda göstərilən bütün sənədlərin, qaydaların, təlimatların və digər sənədlərin təsdiq edilməsi və dəyişdirilməsi;

15.6.4. İşçilərin əmək haqqlarının və mükafatların ödənilməsi sisteminin təsdiq olunması;

15.6.5. Bankın idarə edilməsinə və fəaliyyətinə nəzarəti həyata keçirmək, o cümlədən fəaliyyəti haqqında istənilən hesabatı və məlumatı nəzarət etdiyi idarəetmə orqanları və Bankın daxili komitələrindən, habelə struktur bölmələrdən alınması və baxılması;

15.6.6.Səhmdarların Ümumi Yığıncağına tövsiyyələrin, o cümlədən Bankın fəaliyyətinin strategiyası və inkişafı barədə tövsiyyələrin verilməsi;

15.6.7. Bankın İdarə Heyətinə qanunvericiliyi pozan qərarların qəbul edilməsinin qarşısının alınması və yaxud onların dayandırılmasına dair göstərişlərin verilməsi;

15.6.8. Səhmdarların Ümumi Yığıncaqlarının bildirişlərin göndərilməsi yolu ilə çağırılması, habelə buraxılmış və geri alınmamış Səhmlərinin 5 (beş) faizinə sahib olan Səhmdar və ya Səhmdarlar qrupu, Audit Komitəsinin və İdarə Heyətinin tələbi ilə, onların gündəliyi üzrə keçirilən növbədənkənar yığıncaqlar istisna olmaqla, Səhmdarların Ümumi Yığıncağının gündəliyinin qəbul edilməsi;

15.6.9. Bank tərəfindən qüvvədə olan Azərbaycan Respublikasının Qanunvericiliyinin pozulması faktını müəyyən etdikdə bu pozuntu barəsində Səhmdarların Ümumi Yığıncağının, Audit Komitəsinin və İdarə Heyətinin xəbərdar edilməsi və Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanına bank Qanunvericiliyinin pozulması faktları barədə bildirişin göndərilməsi;

15.6.10. Bankın İnzibatçılarına qarşı hər hansı məhkəmə işinin başlanmasının təsdiq olunması, İdarə Heyətinin üzvlərinin vəzifədən kənarlaşdırılması, Səhmdarların Ümumi Yığıncağında təsdiq edilənədək İdarə Heyətinin üzvlərinin müvəqqəti olaraq digər şəxslərlə əvəz edilməsi;

15.6.11 .Bank ilə İdarə Heyətinin bir və ya bir neçə üzvü arasında mənafelər toqquşması olduğu hallarda Bankın idarə və təmsil edilməsi;

15.6.12. Bankın etibarlı və prudensial idarə olunmasının təmin edilməsi məqsədi ilə 15.6.2 və 15.6.3-cü bəndlərində göstərilən sənədlərə əlavə olaraq digər zəruri qayda və daxili əsasnamələrin təsdiq edilməsi;

15.6.13. Bankın kapital ehtiyatlarının yaradılması haqqında qərar qəbul edilməsi;

15.6.14. "Banklar haqqında Qanun"un 24.3-cü və 25.1.10-cu maddələrinin tələbləri nəzərə alınmaqla, Bankın Nizamnamə Kapitalının 50 (əlli) faizindən artıq məbləğdə Bank adından müvafiq əqdlərin bağlanmasına icazə verilməsi.

15.6.15. Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq Banka Aidiyyatı olan Şəxslər və onların adından hərəkət edən şəxslər ilə əqdlərin təsdiq edilməsi;

15.6.16. Bankın fəaliyyətinin kompleks və ayrı-ayrı sahələrinin yoxlanması haqqında qərarların qəbul edilməsi;

15.6.17. Kənar və daxili auditorların, illik audit və ya yoxlamanın, o cümlədən Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının yoxlamalarının nəticələrinin nəzərdən keçirilməsi və belə yoxlamaların yekunlarına dair tədbirlərin görülməsi;

15.6.18 .Hər hansı dividendlərin ödənilməsi ilə bağlı Səhmdarların Ümumi Yığıncağına ediləcək tövsiyyələrin təsdiq olunması;

15.6.19. Bankın bazarda olan faiz dərəcələrindən aşağı faiz dərəcəsinin tətbiq edilməsini təklif etdiyi hər hansı əqdin təsdiq olunması və dəyişdirilməsi;

15.6.20. Korporativ istiqrazların və digər növ qiymətli kağızların, səhmlər istisna olunmaqla, buraxılmasının təsdiq olunması;

15.6.21. Azərbaycan Respublikasının qanunvericiliyi, maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları, bu Nizamnamə və Müşahidə Şurası haqqında Əsasnamə ilə nəzərdə tutulmuş digər səlahiyyətlərin həyata keçirilməsi.

15.6.22. Səhmdarların Ümumi Yığıncağına bu Nizamnamənin 10.6.1., 10.6.14., 10.6.15., 10.6.18-ci bəndlərində nəzərdə tutulan məsələlər üzrə tövsiyyələrin verilməsi.

15.6.23. Bankın Audit Komitəsinin üzvlərinin və Sədrinin seçilməsi və onların səlahiyyətlərinə xitam verilməsi, Audit Komitəsinin əsasnaməsinin təsdiq edilməsi. Audit Komitəsinin üzvlərinin bütün hüquq və vəzifələri bu qurumun müvafiq əsasnaməsində öz əksini tapır.

15.6.24. Audit Komitəsinin sədri və üzvlərinə hər hansı əmək haqqının ödənilməsinin təsdiq edilməsi.

15.6.25. Növbəti və tələb olunduğu hallarda növbədənkənar auditin keçirilməsi barədə qərar qəbul etmək və bu məqsədlə kənar auditoru təyin etmək.

15.7. 15.6.22.-ci bəndində nəzərdə tutulan məsələlər ilə bağlı qərarlar Müşahidə Şurasının bütün üzvlərinin müsbət səs verdiyi halda qəbul olunur.

15.8. Müşahidə Şurasının hər bir iclasının protokolu tərtib olunaraq və Müşahidə Şurasının Sədri tərəfindən imzalanaraq iclasın keçirilmə vaxtından sonra 10 (on) gün ərzində Müşahidə Şurasının hər bir üzvünə verilməlidir. Əgər protokolun çatdırılması vaxtdan 10 (on) gün ərzində heç bir Müşahidə Şurasının üzvü tərəfindən etiraz irəli sürülməzsə, protokol təsdiq olunmuş

hesab olunur. Hər bir iclasın protokolu Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş məlumatları əks etdirməlidir.

15.9. Müşahidə Şurası Bankın bu Nizamnamənin müddəalarına əməl etməsini daim təmin etməlidir.

## BƏND 16. İDARƏ HEYƏTİ

16.1. İdarə Heyəti Bankın məsul icra orqanıdır. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağının, Müşahidə Şurasının qərarlarına və bu Nizamnamənin müddəalarına əsasən Bankın fəaliyyətinə gündəlik rəhbərliyi həyata keçirir.

16.2. İdarə Heyəti, tək sayda olmaqla ən azı 3 (üç) üzvdən ibarətdir. İdarə Heyəti Səhmdarların Ümumi Yığıncağı tərəfindən 3 (üç) il müddətinə seçilir. İdarə Heyətinin üzvləri növbəti müddətlərə yenidən seçilə bilərlər.

16.3. Azərbaycan Respublikasının Qanunvericiliyi ilə müəyyən edilmiş tələblərə uyğun gəlməyən şəxs Bankın İdarə Heyətinin üzvü ola bilməz.

16.4. İdarə Heyətinin hər hansı üzvü vəzifələrini icra etdiyi müddətdə 16.3-cü bəndində müəyyən olunmuş halların çərçivəsinə düşdükdə dərhal İdarə Heyətinin üzvlüyündən istefa verməlidir.

## BƏND 17. İDARƏ HEYƏTİNİN İCLASLARI BARƏDƏ BİLDİRİŞ

17.1. İdarə Heyətinin iclasları adətən hər ayın bazar ertəsi günləri keçirilir.

17.2. İdarə Heyətinin iclası bütün üzvlərin razılığı olduğu halda müvafiq olaraq çağırılmış hesab olunur.

17.3. İdarə Heyətinin iclasları barədə bildiriş hər bir formada, o cümlədən elektron poçt vasitəsi ilə İdarə Heyətinin üzvlərinə iclasın keçirilməsinə adətən 3 (üç) təqvim günü, ən azı isə 1 (bir) təqvim günü qalmış göndərilir.

17.4. İdarə Heyəti onun üzvü tərəfindən qaldırılmış istənilən məsələni iclasda müzakirə edə bilər.

## BƏND 18. İDARƏ HEYƏTİNİN İCLASLARININ QAYDALARI

18.1. İdarə Heyətinin iclasında hər hansı iş yalnız Yetərsay olduqda aparıla bilər. İclasda üzvlərin yarısından çoxunun iştirakı iclasda Yetərsay təşkil edir.

18.2. İdarə Heyətinin hər bir üzvü İdarə Heyətinin iclaslarında müzakirə olunan məsələlər ilə bağlı 1 (bir) səsə malikdir. İdarə Heyətinin qərarları sadə səs çoxluğu ilə qəbul olunur.

18.3. Səslər bərabər bölündükdə İdarə Heyətinin sədri həlledici səsə malikdir.

18.4. İdarə Heyətinin üzvləri səsvermə zamanı bitərəf qala bilməzlər.

18.5. İdarə Heyətinin sədri və ya iclasın keçirilməsini təklif edən İdarə Heyətinin üzvü İdarə Heyətinin iclaslarının gündəliyinin hazırlanması və onun barəsində bildirişlərin verilməsi vəzifəsini daşıyır.

18.6. İdarə Heyətinin müstəsna səlahiyyətinə aşağıdakılar aiddir:

18.6.1. Bankın təşkilati strukturuna dair Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

18.6.2. Bankın əsasnamələrinin, təlimatlarının və digər daxili qaydalarının müvafiq Qanunvericiliyə uyğun tərtib olunması məqsədi ilə Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

18.6.3. Bankın struktur vahidlərinin hesabatlarının hazırlanmasında iştirak etməsi;

18.6.4. Öz səlahiyyətləri çərçivəsində Səhmdarların Ümumi Yığıncağı və Müşahidə Şurası tərəfindən baxılacaq məlumat və tövsiyyələrin hazırlanması;

18.6.5. bank əməliyyatlarının aparılması, banklararası müqavilələrin bağlanmasına dair məsələlərə baxılması və mühasibat, hesabat və daxili məsələlər üzərində nəzarətin həyata keçirilməsi;

18.6.6. kadrların seçilməsi, onların ixtisasının artırılması, əmək muqavilələrinin və işçilərin əmək haqqlarının tənzimlənməsi ilə bağlı məsələlərə baxılması;

18.6.7. Bank tərəfindən tətbiq edilən faiz dərəcələri və komission haqqları ilə bağlı Müşahidə Şurasına tövsiyyələrin verilməsi;

18.6.8. Səhmdarların Ümumi Yığıncağının və Müşahidə Şurasının müstəsna səlahiyyətlərinə aid olmayan hər hansı digər məsələlərin həll edilməsi.

18.7. İdarə Heyətinin sədri:

18.7.1. İdarə Heyətinin gündəlik işini təşkil edir və onun iclaslarına sədrlik edir;

18.7.2. İdarə Heyətinin, Müşahidə Şurasının və Səhmdarların Ümumi Yığıncağının qərarlarının icrasını təmin edir;

18.7.3. Üçüncü tərəflər ilə münasibətlərdə etibarnamə olmadan Bankı təmsil edir və vaxtaşırı olaraq bu səlahiyyəti İdarə Heyətinin digər üzvlərinə həvalə edə bilər;

18.7.4. Bankın büdcəsinin icrasına nəzarət edir, müqavilələr və etibarnamələri imzalayır, və bu Nizamnamə ilə müəyyən olunmuş səlahiyyətlər çərçivəsində Bankın adından qarantiya verir;

18.7.5. Bankın işçilərini işə qəbul edir və Bank işçilərinin əmək haqqları ilə bağlı qərarları icra edir.

## BƏND 19. AUDİT KOMİTƏSİ VƏ DAXİLİ AUDİT

19.1. Audit Komitəsi Müşahidə Şurası tərəfindən 3 (üç) il müddətinə məhdudiyyət qoyulmadan növbəti 3 (üç) il müddətinə seçilmək hüququ ilə seçilən tək sayda olmaqla azı 3 (üç) üzvdən ibarətdir. Audit Komitəsinin üzvlərindən biri Müşahidə Şurası tərəfindən Audit Komitəsinin sədri təyin edilir. Audit Komitəsinin üzvlərinin sayı və iş qaydası Müşahidə Şurası tərəfindən qəbul edilən Audit Komitəsinin qaydalarında müəyyən edilir.

19.2. İdarə Heyətinin üzvləri, habelə Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş digər şəxslər Audit Komitəsinin üzvləri ola bilməzlər.

19.3. Audit Komitəsinin üzvləri və daxili audit bölməsinin əməkdaşları onlar üçün qanunvericiliklə müəyyən edilmiş tələblərə cavab verməlidirlər.

19.4. Audit Komitəsi aşağıdakı səlahiyyətlərə malikdir:

19.4.1. Bankın audit siyasətini və strategiyasını müəyyən etmək;

19.4.2. Daxili audit planlarını təsdiq etmək və audit bölməsinin fəaliyyətinə nəzarəti həyata keçirmək;

19.4.3. Kənar auditin təyin edilməsi ilə əlaqədar Bankın səlahiyyətli idarəetmə orqanlarına təkliflər vermək;

19.4.4. Kənar auditlə birgə işi təşkil etmək, auditin nəticə və tövsiyyələrinin həyata keçirilməsinə yardım etmək;

19.4.5. Bankın idarəetmə orqanları ilə kənar auditorlar, habelə nəzarət orqanları arasında əlaqələr qurmaq;

19.4.6. Daxili nəzarət sistemlərinin təkmilləşdirilməsinə dair Səhmdarların Ümumi Yığıncağına və Müşahidə Şurasına təkliflər vermək;

19.4.7. Bank tərəfindən Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi qaydalara və bu Nizamnaməyə əməl olunmasına nəzarət etmək;

19.4.8. Bankda mühasibatlığın aparılmasına nəzarəti həyata keçirmək.

19.4.9. Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş digər səlahiyyətləri həyata keçirmək.

19.5. Audit Komitəsi qəbul olunmuş cədvələ uyğun olaraq, həmçinin Müşahidə Şurasının, İdarə Heyətinin, buraxılmış səhmlərin 5 (beş) faizindən çoxuna sahib olan Səhmdarların tələbi ilə və Nizamnamədə müəyyən edilmiş digər hallarda yoxlamaların keçirilməsini təmin edir. Səhmdarların Ümumi Yığıncağı audit hesabatı olmadan illik balansı təsdiq edə bilməz.

19.6. Audit Komitəsi onun iclasında üzvlərinin yarısından çoxu iştirak etdikdə səlahiyyətlidir. Audit Komitəsinin qərarları iclasda iştirak edən üzvlərinin

sadə səs çoxluğu ilə qəbul olunur. Üzvlər səsvermə zamanı bitərəf qala bilməzlər. Səslər bərabər bölündükdə Audit Komitəsinin sədri həlledici səsə malikdir.

19.7. Audit Komitəsinin üzvlərinin əmək haqqı formasında muzdu Müşahidə Şurası tərəfindən müəyyən edilir.

19.20. Bankın daxili audit bölməsi Audit Komitəsinin nəzarəti altında fəaliyyət göstərir və Bankın icra orqanı ilə qarşılıqlı surətdə Bankda daxili nəzarət və risklərin idarə edilməsi sistemlərinin fəaliyyətinin səmərəliliyinə fasiləsiz nəzarəti həyata keçirir.

19.21. Daxili audit bölməsinin rəhbəri və əmkdaşları Audit Komitəsinin təqdimatı ilə Müşahidə Şurası tərəfindən vəzifəyə təyin edilir və azad olunur.

19.22. Bankda Audit Komitəsinin və daxili audit bölməsinin fəaliyyətinin standart və qaydalarını maliyyə bazarlarına nəzarət orqanı müəyyən edir.

## BƏND 20. MÜHASİBATLIQ

20.1. Müşahidə Şurası, Bankın illik auditini aparmaq üçün beynəlxalq səviyyədə tanınmış auditor firmasını təyin edir.

20.2. Maliyyə ili başa çatdıqdan sonra Bank kənar auditor tərəfindən təsdiqlənmiş birləşmiş maliyyə hesabatını auditor rəyi ilə birlikdə maliyyə bazarlarına nəzarət orqanına, Səhmdarlara, habelə müştərilərin tələbi ilə onlara təqdim edir və dərc edir. Dərc olunan hesabatın forması, məzmunu və müddətləri maliyyə bazarlarına nəzarət orqanı tərəfindən müəyyən edilir.

20.3. Bank bank əməliyyatlarına aid olan sənədləri, o cümlədən elektron daşıyıcılarda olan məlumatları Azərbaycan Respublikasının Qanunvericiliyində müəyyənləşdirmiş minimal müddət ərzində saxlamalıdır.

20.4. Bank Azərbaycan Respublikasının Qanunvericiliyi ilə və maliyyə bazarlarına nəzarət orqanı tərəfindən tələb edilən hesabatları müvafiq formada hazırlayır və müvafiq dövlət orqanlarına təqdim edir.

## BƏND 21. MÜŞTƏRİLƏR İLƏ MÜNASİBƏTLƏR

21.1. Bank ilə müştərilər arasında münasibətlər yazılı müqavilələrə əsaslanır. Heç bir tərəf müqavilələrdə və Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla belə müqavilələrin şərtlərini birtərəfli qaydada dəyişə bilməz.

Maliyyə bazarlarına nəzarət orqanının normativ xarakterli aktları və göstərişləri ilə, habelə lisenziyalar və icazələrlə məhdudlaşdırılan hallar istisna olmaqla, Bank digər banklarla qarşılıqlı surətdə Azərbaycan Respublikasının Mülki

Məcəlləsi ilə müəyyən edilmiş qaydada hər növ əməliyyatlar apara, bir-birində depozit, o cümlədən müxbir və digər hesablar aça bilərlər.

21.2. Bank digər banklarla uzun müddətli əməkdaşlıq müqavilələri, pul vəsaitinin və qiymətli kağızların köçürülməsi, klirinq və hesablaşma mexanizmlərindən istifadə edilməsi, qiymətli kağızların depozitə qəbul edilməsi və digər ümumi bank xidmətlərinin göstərilməsi, üzvlərinin mənafelərinə dəstək göstərilməsi məqsədi ilə qeyri-kommersiya birliklərinin və assosiasiyalarının yaradılması, habelə bank işinin davamlı inkişafını dəstəkləyən və ya bank fəaliyyətinə yardımçı olan başqa fəaliyyətin həyata keçirilməsi haqqında müqavilələr bağlaya bilər.

21.3. Bank əmanətlərin təhlükəsizliyini təmin edir, əmanətçilərə qarşı öz öhdəliklərini icra edir və həmçinin depozitin götürülməsi qaydalarına (belə qaydalar mövcud olduğu halda), depozitə qoyulmuş vəsaitlərdən və hesablanmış faizlərdən istifadə qaydalarına depozitlərin üçüncü tərəflərə köçürülməsi qaydalarına riayət edir. Əmanətlər üzrə gəlirlər pul vəsaiti ilə ödənilir.

21.4. Bank Azərbaycan Respublikası və xarici dövlətlərin vətəndaşlarından, vətəndaşlığı olmayan şəxslərdən və digər şəxslərdən depozitləri qəbul etmək hüququna malikdir.

21.5. Bank onun ofislərində depozitlərin qəbul edilməsi, kreditlərin verilməsi, digər fəaliyyət növlərinin aparılması və xidmətlərin göstərilməsi şərtləri və qaydaları haqqında müştərilərinə məlumat verir.

21.6. Müştərilərlə bağladığı müqavilələrə əsasən, Bank fəaliyyətinin şərtlərini, o cümlədən faiz dərəcələrini, komisyon haqlarını və göstərilən bank xidmətləri üçün digər ödənişləri, habelə bank tərəfindən verilmiş kreditlərin qaytarılması şərtlərini və qaydalarını müəyyən etməkdə sərbəstdir.

21.7.Bank öz müştərilərinə məxfi məlumatların, o cümlədən bank sirrinin qorunmasına təminat verir.

21.8. Bank yalnız Azərbaycan Respublikasının Mərkəzi Bankından müvafiq lisenziyası əsasında hüquqi və fiziki şəxslərdən depozitlər qəbul etmək və onlarla əməliyyatlar aparmaq hüququna malikdir.

21.9. Bankın əmanətçisi vəfat etdiyi halda əmanət Azərbaycan Respublikasının Qanunvericiliyində müəyyən edilmiş qaydada əmanətçinin varis(lər)inə verilir.

## BƏND 22. BANKIN YENİDƏN TƏŞKİLİ VƏ LƏĞVİ

22.1. Bankın yenidən təşkili Səhmdarların Ümumi Yığıncağının qərarı ilə Azərbaycan Respublikasının maliyyə bazarlarına nəzarət orqanının yazılı razılığı əsasında Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq həyata keçirilə bilər.

22.2. Bank Səhmdarların Ümumi Yığıncağının qərarı və ya Azərbaycan Respublikasının Qanunvericiliyinə uyğun olaraq ləğv edilə bilər. Bankın ləğvi Azərbaycan Respublikasının Qanunvericiliyində nəzərdə tutulmuş qaydada həyata keçirilir.

22.3. Bankın kreditorları, vergi və Bankın məsuliyyət daşıdığı digər məcburi ödənişlər üzrə hesablaşmalardan sonra qalan Bankın əmlakı Səhmdarlar arasında onlara mənsub Səhmlərin sayına mütənasib suratdə bölüşdürülür.

Bu sənəd 25 vərəqdə
tikilmiş və möhürlənmişdir

Müşahidə şurasının sədri
E.M. Əmirov

UNIBANK
COMMERCIAL BANK

**"Dövlət qeydiyyatına alınmışdır"**

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin Milli Gəlirlər Baş İdarəsinin Hüquqi şəxslərin Dövlət qeydiyyatı idarəsi tərəfindən

Qeydiyyat № ____________

"_____" ____________ 20__-ci il

İdarə rəisi: ________________

**"Təsdiq edilmişdir"**

"Unibank" Kommersiya Bankı" ASC-nin Səhmdarlarının Növbədənkənar Ümumi Yığıncağının "29" aprel 2022-ci il tarixli 2 saylı Protokolu ilə

Müşahidə Şurasının Sədri

KOMMERSİYA BANKI UNIBANK COMMERCIAL BANK

/E.M.Qəribov

27 iyul 1992-ci il 72 № ilə Azərbaycan Respublikasının Ədliyyə Nazirliyində dövlət qeydiyyatına alınmış, № (VÖEN) 1300017201 olan "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 19 may 2021-ci il tarixli yeni redaksiyada nizamnaməsinə edilmiş

## D Ə Y İ Ş İ K L İ K L Ə R

**1.** Bankın Nizamnaməsinin 5.1-ci bəndində "130 686 357,60 (bir yüz otuz milyon altı yüz səksən altı min üç yüz əlli yeddi manat altmış qəpik)" sözləri "142 586 357,60 (bir yüz qırx iki milyon beş yüz səksən altı min üç yüz əlli yeddi manat altmış qəpik)" sözləri ilə əvəz edilsin;

**2.** Bankın Nizamnaməsinin 5.2-ci bəndində "48 046 455 (qırx səkkiz milyon qırx altı min dörd yüz əlli beş)" sözləri "52 421 455 (əlli iki milyon dörd yüz iyirmi bir min dörd yüz əlli beş)" sözləri ilə əvəz edilsin.